IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 23. Issue 02. Sentabr, 2026

HƏYAT HƏQİQƏTİ VƏ BƏDİİ HƏQİQƏTİN QARŞILIQLI DİALEKTİKASI

Ulduz Fərhad Qəhrəmanova
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
"Ədəbiyyat" kafedrasında dosent
ulduzkahraman1@gmail.com
Orcid İD: 0009-0003-4418-9319
https://doi.org/10.5281/zenodo.23123949

Annotasiya: Məqalədə həyat həqiqəti və sənət həqiqəti paralel şəkildə təhlil edilmişdir. Həmçinin həyat həqiqətinin sənət həqiqəti səviyyəsinə qaldırılmasında yaradıcılıq prosesinin mahiyyəti izah edilmişdir. Tədqiqatçı hesab edir ki, sənətkar qələmə aldığı faktları, cəmiyyət hadisələrini, ictimai-əxlaqi problemləri həyatda olduğu kimi eynilə bədii əsərə köçürmür. Belə olsaydı onun yazdığı əsər adi fotoya, həyatın cansız, quru, hərəkətsiz ifadəsinə, maraqsız təkrarına çevrilərdi. Həyat həqiqətini bədii həqiqətə çevrilməsində yazıçı fantaziyası və yaradıcılıq ilhamı məsələlərinin nəzəri təhlili məqalədə tədqiqatçı tərəfindən izah edilmişdir.
Açar sözlər: həyat həqiqəti, sənət həqiqəti, yaradıcılıq ilhamı, yazıçı fantaziyası

THE DIALECTICAL INTERPLAY BETWEEN THE TRUTH OF LIFE AND ARTISTIC TRUTH

Abstract: The truth of life—that is, concrete facts of life—is a fundamental component here. Without life, there can be no talk of artistic creation. The Russian writer Leo Tolstoy maintained that an artist should constantly be among the people; even when traveling, they should ride in a general carriage. Fyodor Dostoevsky offered similar advice to a young writer: "Do not fabricate plots or storylines yourself; life is far richer than our imagination." Artistic truth is the truth of art; it is the elevation of a concrete life fact to the level of artistic truth through the writer's imagination and fantasy. Indeed, the truth of life rises to the level of artistic truth only after being enriched by the artist's imagination. It is the artist's imagination and thought that shape the truth of life into an artistic form. It is impossible to capture the attention of readers, listeners, or viewers—or to stir their emotions and provoke thought—simply by reflecting life exactly as it is. Indeed, one of the fundamental aims of art is to reveal, convey, and evoke precisely that which cannot be seen by the naked eye, heard by the ordinary ear, or grasped through common intuition. Artists—writers, poets, painters, and composers—are the ones capable of elevating the truths of life to the level of artistic truth through their rich imaginations and mastery of their craft.
Keywords: truth of life, artistic truth, creative inspiration, writer's imagination

Ədəbiyyatşünaslara görə, bədii ədəbiyyatda həyat həqiqətinə 2 cür münasibət vardır.

1. Həyat həqiqətini olduğu kimi vermək. Bu realistlərin yaradıcılıq xüsusiyyətidir.

2. Həyat həqiqətini yazıçının istədiyi kimi vermək meyli xüsusiyyəti. Bu da romantiklərə məxsusdur.

1. Həyat həqiqəti, yəni konkret həyat faktı bura daxildir. Həyat yoxdursa, heç bir bədii yaradıcılıqdan söhbət gedə bilməz. Rus yazıçısı Lev Tolstoy deyirdi ki, sənətkar daim el içində olmalı, hətta səfərə çıxanda belə ümumi vaqonda getməlidir. F.Dostoyevski gənc yazıçıya belə məsləhət verirdi. "Özündən süjet, fabula uydurmayın, həyat bizim təxəyyülümüzdən qat-qat zəngindir".

2. Bədii həqiqət –sənət həqiqətidir. Yazıçı xəyalı, yazıçı fantaziyası ilə konkret həyat faktının sənət həqiqəti səviyyəsinə ucalmasıdır. Həyat həqiqəti isə məhz sənətkar təxəyyülü ilə dolğunlaşandan sonra bədii həqiqət səviyyəsinə yüksəlir. Həyat həqiqətini bədii formaya salan sənətkar təxəyyülüdü, sənətkar düşüncəsidi. Həyatı necə varsa elə əks etdirməklə oxucu, dinləyici, tamaşaçı diqqətini cəlb etmək, onları həyəcanlandırmaq, düşündürmək mümkün deyildir. Sənətin əsas qayələrindən biri isə məhz adi gözlə görünə bilməyəni, adi qulaqla eşidilməyəni, adi intuisiya ilə qavranılmayanı göstərmək, eşitdirmək, hiss etdirməkdən ibarətdir. Həyat həqiqətlərini öz zəngin təxəyyülü, sənətkarlıq bacarığı ilə bədii həqiqət səviyyəsinə qaldıra bilən sənətkarlar yazıçılar, şairlər, rəssamlar, bəstəkarlardır.

Sənətkar qələmə aldığı faktları, cəmiyyət hadisələrini, ictimai-əxlaqi problemləri həyatda olduğu kimi eynilə bədii əsərə köçürmür. Belə olsaydı onun yazdığı əsər adi fotoya, həyatın cansız, quru, hərəkətsiz ifadəsinə, maraqsız təkrarına çevrilərdi. Yazıçı saf-çürük edib səliqəyə saldığı, dəqiqləşdirdiyi mövzunu aylarla qəlbində gəzdirir, özününküləşdirir, tam dərk etdikdən sonra həyat həqiqətini bədii həqiqətə çevirir. Sənətkar hələ qələmi əlinə götürməmiş bədii əsər onun qəlbində, ruhunda tamamilə hazır olmalıdır.Yazmaq sənətkar üçün II dərəcəli işdir.

Həyat həqiqətinin bədii həqiqətə çevrilməsində 2 mühüm cəhət vardır:

1. Həyatın məhz sənətkar müşahidəsi ilə öyrənilməsi. Bu zaman mövzu funksiyasını icra edir.

2. Sənətkarın həyat materialını ümumiləşdirmək bacarığı. Bu zaman məzmun funksiyasını icra edir.

Həyat həqiqəti o vaxt bədii həqiqət olur ki, insan taleyi-xalq taleyini, fərdlər-cəmi, təklər-ümumini təmsil və təcəssüm edir. Həyat həqiqəti ilə bədii həqiqət eyni deyildir. Bədii əsər obrazlı təfəkkürün məhsuludur. O, yazıçı xəyalı, düşüncələri ilə bağlıdır. Bədii əsərdəki həqiqətlə onun əsasını təşkil edən həyat həqiqəti arasında heç vaxt eyniyyət ola bilməz. Məsələn: Ə. Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" faciəsinin, Y.V.Çəmənzəminlinin "Qan içində" romanı, S.Vurğunun "Vaqif" pyesinin mövzusu eyni tarixi hadisədən götürülmüşdür. Hər üç əsərdə tarixi hadisələr özünün real bədii əksini tapmışdır. Lakin bu əsərlərdəki həqiqət tarixi həqiqətlə eyni deyildir.

Eyni tarixi həqiqətə hər yazıçının öz baxışı vardır, hər ədib tarixi-keçmişdən başqa-başqa nəticə çıxarmışdır. Keçmiş hadisələri bədii sistemə salıb mənalandırmaqda bir yazıçının üsulu digər yazıçının üsuluna uyğun gəlmir. Çünki hər sənətkarın tarixi keçmişimizə münasibəti başqadır, tarixi şəxsiyyətlər haqqında təsəvvürü müxtəlifdir. Tarixi hadisələrin hər bir yazıçıya bağışladığı təəssürat, yazıçının keçirdiyi həyəcanlar başqa-başqadır. Belə ki, tarixi həqiqətin bədii həqiqətə çevrilməsi prosesi sənətkarın məqsəd və məramına xidmət edir. Məsələn: Eyni

tarixi şəxsiyyətlər bədii əsərlərdə ayrı-ayrı şəkildə təzahür edir. Bu həmin obrazlara yazıçıların münasibətidir. Məsələn: Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" və S.Vurğunun "Vaqif" əsərlərini götürək. Hər iki əsərdə eyni dövr, qismən eyni qəhrəmanlar, eyni hadisələr təsvir edilmişdir. Hər ikisində də Ağa Məhəmməd şah Qacarın, iranlıların Zaqafqaziyaya hücumu təsvir edilmişdir. Lakin Haqverdiyev Qacarla daha çox maraqlandığı halda, S.Vurğun əsas qəhrəman olaraq Vaqifi seçir. Haqverdiyev Qacarı böyük bir hökmdar, İranı birləşdirən bir hökmdar kimi göstərir, onun zülmkarlığına, qansoruculuğuna bir növ az yer verir. O, Vaqifi xatırlamır. Əksinə, Qacardan bəhs edərkən bütün nifrəti ilə Qacarın yırtıcı, amansız, şərəfsiz təbiətini və taleyini canlandırmağa çalışır. Eyni insanlar başqa-başqa müəlliflər tərəfindən tamamilə başqa bir şəkildə təsvir edilir. Hər iki sənətkarın qarşısında qoyulan problem eyni deyildir.

Həyat həqiqəti ən güclü, ən kamil həqiqətdir. Bütün düstur, qanunlar bu həqiqətə əsaslanmalıdır. Bədii əsər həyatın inikasıdır, özü deyildir. Əsər surətlər aləmidir. Bu aləmdə həyat olduğu kimi, bəlkə olduğundan daha tam, daha maraqlı əks edilmişdir. Həqiqi sənətkar öz şəxsi fikrini, mülahizələrini bədii ədəbiyyata gətirmir, onu həyat həqiqətləri ilə, reallıqla vəhdətdə verir. İstedadlı qələm sahibi də həyat həqiqətlərinin ən tipik olanlarını əsərdə bədii həqiqət səviyyəsinə yüksəldə bilir. Həyat həqiqəti sənətkarın yaradıcılıq təxəyyülünə daxil olub, yazıçı düşüncələri vasitəsilə müxtəlif bədii formaya-şeir, roman, dram, komediya, faciə, esse kimi yenidən həyata qayıdır.

Antik ədəbiyyatşünaslıqda bədii yaradıcılığın mənşəyi məsələsinə toxunulmuşdur. Aristotel belə hiss edir ki, həyat həqiqətinin əsasında təqlid durur. Təqlid-insanın bu və ya digər canlını yamsılama xüsusiyyətidir. Təqlid nəzəriyyəsini Aristotel inkişaf etdirmişdir. Məsələn:

1.Böyük Azərbaycan şairi Xaqani Şirvani keşməkeşli ömür yolu sürmüşdür. Onun övladlarının vaxtsız ölümü atanın ürəyinə çalın-çarpaz dağ çəkmiş, şair bu ağrı və əzabı özünəməxsus bir tərzdə öz əsərlərində əks etdirmiş, həyat hadisələrini bədii həqiqət səviyyəsinə yüksəltməyi bacarmışdır. Bunu şairin qızının ölümü münasibətilə yazdığı misralarda görmək olar:

Yenicə doğulan qızım gördü ki,
Qarşıda gözlənir min bəla, öldü.
Qeybdən gələn o töhfə duydu ki,
Dərdlərə olacaq mübtəla, öldü.
O kiçik gövhərim yaxşı anladı.
Çox pis yaranıbdır bu dünya, öldü.
Bildi ki, ürəyim dərdə düşəcək,
Üzünü tutaraq binəva, öldü.
O, böyük qızımı pərdədə görcək,
Dedi:-kifayətdir bu cəfa, öldü...

Yaxud şair oğlu Rəşidin ölümü münasibətilə yazdığı şeir də çox mənalı və düşündürücüdür.

Rəşidim ölən zaman ona belə söylədim:
Ürəyində bir arzun varsa, söylə müxtəsər.
Cavab verdi ki, arzu həyat üçün pərəkdir,
Həyat əldən gedirkən arzu qalırmı məgər?

Qızın ölümü bioloji hadisədir və tale işidir. Şair isə bu adi həyat həqiqətini poetik həqiqət səviyyəsinə qaldıraraq yaşatdığı cəmiyyətdə qadın hüquqsuzluğuna qarşı üsyan edir. Xaqaninin təfsirində qız qarşıda min bəlanın gözlənildiyini, dərdə salacağını bildiyi üçün ölür.

2.Həyat hadisələrini olduğu kimi qələmə almaqla ədəbi uğurlar qazanmaq mümkün deyildir. Əsas məsələ faktlara, olaylara sənətkar münasibətidir. Hadisələri necə təqdim etməkdən də çox şey aslıdır. Məsələn: Nizami öz ideyasını, fikirlərini vermək üçün həyatda mümkün olmayan hadisəni bədii həqiqət səviyyəsinə qaldıra bilmişdir. Nizami "Xosrov və Şirin" əsərində Fərhadın öz külüngü ilə Bisitun dağını çapıb yol açmasından, "Yeddi gözəl"də Fitnənin öküzü boynuna alıb pillələrlə yuxarı qalxmasından söhbət açılır. Dağı çapmaq da, bir qızın öküzü boynunda qaldırması da həqiqətə uyğun deyildir. Hətta müasir texnikanın gücündən istifadə etməklə belə dağ çapmaq uzun bir prosesdir.

3.Qocalarkən insan belinin bükülməsi izahata ehtiyacı olmayan adi həyat həqiqətidir. Lakin ustad Füzuli bunu orijinal, özünəməxsus şəkildə mənalandıraraq bədii həqiqətə çevirmiş, dünyanı dərk etməyə çalışan həssas oxucuları düşüncələrə qərq etmişdir.

Ey Füzuli, qədimiz qıldı fələk xəm, yəni.
Vəqtdir çıxmağa dünya qapısından, əyilin

Həyat həqiqətinin bədii həqiqətə çevrilməsi sənətkarın üslubu ilə sıx şəkildə əlaqədardır. Həyat həqiqəti yazıçını, şairi düşündürür, onu bədii yaradıcılığa sövq edir. Ədəbiyyat həyatdan qidalanır, ancaq eyni zamanda həyatın bədii dərkinə yardımçı olur, insanların dünyagörüşünün, həyat təcrübəsinin, estetik zövqünün formalaşmasında son dərəcə mühüm amilə çevrilir. Amerika yazıçısı Xose Mariya Arqedasın fikrincə, yaradıcılığın ən əsas mənbəyi yazıçının təcrübəsidir. Yazıçı yaşadığı dövrün aynası olmalı, həyat həqiqətlərini öz yaradıcılıq fantaziyası, ədəbi metodu, üslubu ilə cilalayıb, emal edib, bədii həqiqət səviyyəsinə qaldırmağı bacarmalıdır.

Hər bir yazıçının özünəməxsus yaradıcılıq üslubu var. Hamıdan eyni cür yazmaq, eyni cür düşünmək tələb etmək ağılsızlıqdır. Həyat hadisələri yaradıcılıq prosesində həmişə əsas, əvəzolunmaz tikinti materialı olmuş və olacaqdır.

Müəllif obrazı həyat həqiqətini bədii həqiqətə çevirən bir ədəbi qəhrəmandır. Müəllif obrazı müəllifin özüdür. Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Əliağa Kürçaylı və başqa sənətkarların poemalarında müəllif obrazı çox görkəmli yer tutur. Konkret müəllif obrazı olmayan əsərlərdə belə o, müsbət, ideal qəhrəman libasına bürünərək fəaliyyət göstərir, haqsızlığa, ədalətsizliyə, cəmiyyətdəki hər cür yaramazlığa qarşı mübarizə aparır, müəllif idealının daşıyıcısına, təmsilçisinə çevrilir. Müəllif obrazı obrazların xarakterinin açılmasında sənətkar təxəyyülü, fantaziyası əhəmiyyət kəsb edir.

Həyat həqiqətini bədii həqiqətə çevrilməsində yazıçı fantaziyası xüsusi rol oynayır. Ədəbi prosesdə yaradıcı şəxsiyyətin təxəyyülü, fantaziyası mühüm rol oynayır. Sənətə məxsus olan xəyal, surət yaxud fantaziya bədii yaradıcılığın ən mühüm əsaslarından biridir. Fantaziya olmasaydı, insanlar böyük kəşflər, ixtiralar, dahiyanə əsərlər yarada bilməzdilər. Lakin fantaziya həyati olmalı, həqiqətlə bağlanmalıdır. Yalnız belə olduqda fantaziya səmərə verə bilər. Fantaziya fantaz sözündən əmələ gəlmişdir. Fantaz yunan əsatirinə görə xəyal, şərab, uydurma

təsəvvürlər yaradan allah idi. Fantaz Yuxu Allahı Morfeyin qardaşı idi. Fantaziya-xəyali, qeyri-həqiqi hadisələrin təsəvvürü deməkdir. Bədii yaradıcılıqda xəyal və fantaziyanın rolunun xüsusi yeri var. Bu məsələ nəzəri baxımından öz başlanğıcını Aristotelin fikrindən götürüb.

Elə yazıçılar var ki, həyat həqiqətini fantaziyadan qat-qat dəyərli hesab edirlər. Dostayevski, Markes belə sənətkarlardandır. Ancaq sənətkar nə qədər realist olsa belə, onun təsvir etdiyi həyat hadisələrinin özündə belə sənətkar fantaziyasının elementləri olur. Çünki özünəməxsus yaradıcılıq üslubu olan hər bir sənətkar subyektiv fikirli canlı insandır. Digər tərəfdən fantaziya insanı həyatdan uzaqlaşdırmır, əksinə, həyatı daha dərindən anlamağa şövq edir. Necə deyərlər, yazıçı təxəyyülü alim düşüncəsini çox zaman qabaqlamışdır. Belə ki, vaxtilə Jül Vernin əsərlərində haqqında söhbət açılan aviasiya, aya uçuş, sualtı qayıqlar, səsli kino, radio, televiziya, elektrik mühərrikləri, kosmik uçuşlar indi günümüzün reallıqlarıdır.

Yazıçı fantaziyası da yaradıcılıq ilhamından qidalanır. Yaradıcılıq ilhamı olmayan sənətkarın fantaziyası ola bilməz. Həyat həqiqətlərinə əsaslanmayan heç bir bədii əsər ürəklərə yol tapa, uzun ömürlü ola bilməz. Həyat hadisələrinə sadiqlik yaradıcılıq prosesində çox vacibdir. Lakin onu olduğu kimi əks etdirmək bədii ədəbiyyatın vəzifəsi deyildir. Həyat həqiqəti müəllif fantaziyası ilə ətə-qana gəlməsə maraq doğura bilməz.

Yazıçı ilhamı yaradıcılıq prosesində sənətkarın şövqlə yaratdığı yaradıcılıq sevgisidir. (U.Q.) Həyat həqiqəti sənətkar ilhamı ilə mayalanmasa, o, bədii həqiqət səviyyəsinə yüksələ bilməz. İlham bədii əsərin hərəkətverici qüvvəsidir. Həyatda adi adamların görə bilmədiyi gözəlliyi görüb həyəcanlanmaq, ilhama gəlmək yalnız istedadlı adamlara nəsib olur. Hər hansı bir havanı çalarkən musiqi alətini kökləmək lazım gəldiyi kimi, sənətkar da yaradıcılıq prosesinin başlanğıcında köklənməli, ilhama gəlməlidir. İlham gecə-gündüz bilmir, vaxt-vədə, məkan, şərait bilmir. Bəzən elə olur ki, yazı prosesində qələm nəzərdə tutduğun sözü yox, tamam başqa şey yazır.

Ədəbiyyatşünaslara görə, ilham sözü ilə yanaşı çox zaman ilham pərisi ifadəsi də işlədilir. Şairi yaradıcılığa sövq edən də məhz ilham pərisidir. İlham pərisi maddi yox, mənəvi qüvvədir. İlham pərisini görmək hər şairə qismət olmur. Elə buna görə də ilham prosesinin portretini yaratmaq da çətindir. İlham pərisi şairin içində yaşayır, onunla birlikdə nəfəs alır, sevinir, dərd çəkir, həyəcanlanır, sevir, nifrət edir.

ƏDƏBİYYAT

1. Xalid Əlimirzəyev, (2008) “Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları”, Bakı
2. Mir Cəlal, Pənah Xəlilov,(2005) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı, Çaşıoğlu
3. Məmməd Əliyev, (2000) “Ədəbiyyat nəzəriyyəsinin əsasları”, Bakı
4. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı
5. Nizaməddin Şəmsizadə, (2012) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı
6. Rafiq Yusifoğlu, (2001) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı